## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# F Ə R M A N I

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin strukturu" təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN APARATI * ÜMUMİ ŞÖBƏ

Naxçıvan şəhəri, 16 aprel 2020-ci il
№ 6-VI FR

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti ilə razılaşdırılmışdır

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti: Ramiz Mehdiyev

"16" aprel 2020-ci il

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 16 aprel tarixli 6-VI/FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi haqqında

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi (bundan sonra - Bölmə) Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 7 avqust tarixli sərəncamı ilə yaradılmışdır.

1.2. Bölmə Naxçıvan Muxtar Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, muxtar respublika üzrə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən dövlət elmi təşkilatıdır.

1.3. Bölmə qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

1.4. Bölmə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Milli Elmlər Akademiyasının (bundan sonra – Akademiya) Nizamnaməsini, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.5. Bölmə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.6. Bölmə öz tərkibinə seçilən üzvlərini (həqiqi, müxbir üzvləri və fəxri doktorları), tabeliyində olan elmi müəssisə və təşkilatlarda çalışan elmi işçiləri və mütəxəssisləri birləşdirir.

1.7. Bölmə öz fəaliyyətinin nəticələri haqqında hər il Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Akademiyanın Rəyasət Heyətinə hesabat təqdim edir.

1.8. Bölmənin müstəqil balansı, xəzinə və bank hesabları, istifadəsində olan dövlət əmlakı, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, rəsmi emblemi, ştamp və blankı vardır.

1.9. Bölmənin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsinin vəsaiti və bu Əsanamədə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.10. Bölmə Naxçıvan Muxtar Respublikasında elmi işçilərin, o cümlədən gənc alimlərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə, elmin maliyyələşdirilməsinə dövlət büdcəsinin resursları ilə yanaşı, bu Əsasnamədə nəzərdə tutulmuş digər mənbələrdən əldə edilən vəsaitləri cəlb edir.

1.11. Bölmə məqsədlərinə nail olmaq və əməkdaşlarının sosial-məişət şəraitini yaxşılaşdırmaq üçün elmin ayrı-ayrı sahələrində əldə etdiyi nailiyyətləri və innovativ yenilikləri istehsalatın müxtəlif sahələrində tətbiq etməklə sahibkarlıq subyektlərini təsis edir.

1.12. Bölmə istifadəsində olan dövlət əmlakının saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi, habelə öz öhdəlikləri üçün məsuliyyət daşıyır.

1.13. Bölmə Naxçıvan şəhərində yerləşir.

**2. Bölmənin fəaliyyətinin məqsədi və istiqamətləri**

2.1. Naxçıvanın tarixi, təbiəti, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi sahəsində yeni biliklər əldə etməklə, Naxçıvan Muxtar Respublikasının iqtisadi, sosial və mədəni-mənəvi inkişafına xidmət göstərmək Bölmənin fəaliyyətinin əsas məqsədidir.

2.2. Bölmənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. Naxçıvan Muxtar Respublikasında elmi maarifləndirməni həyata keçirmək;

2.2.2. elmin inkişafını yerli xüsusiyyətlər və qlobal meyllər nəzərə alınmaqla prioritetləşdirmək və mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesini davam etdirmək;

2.2.3. elmi infrastrukturun təkmilləşdirilməsini, elmin maddi-texniki bazasının müasirləşdirilməsini təmin etmək;

2.2.4. muxtar respublikada innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsalat arasındakı əlaqələri gücləndirmək, tətbiqi elmi

araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmləri yaratmaq;

2.2.5. innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə tədbirlər həyata keçirmək;

2.2.6. innovativ sahibkarlıq və onunla bağlı və yeni fəaliyyət növlərinin inkişafı üçün əlverişli mühitin yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlər həyata keçirmək, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün təkliflər vermək;

2.2.7. qabaqcıl təcrübədən istifadə etməklə Naxçıvan Muxtar Respublikasında yeni bilik və texnologiyaların istifadəsini, mənimsənilməsini və yayılmasını təmin etmək, innovasiya sistemini formalaşdırmaq.

### 3. Bölmənin vəzifələri

3.0. Bölmə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. elm sahəsində islahatların aparılmasını təmin edir, "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa uyğun olaraq, dövlət proqramlarının hazırlanmasında iştirak edir və onların yerinə yetirilməsi üçün tədbirlər görür;

3.0.2. Akademiyanın müvafiq institutları ilə birgə elmin müxtəlif sahələrində elmi tədqiqat işlərinin aparılmasını təşkil edir;

3.0.3. Naxçıvan Muxtar Respublikasında elm sahələrinin prioritet istiqamətlər üzrə inkişafını təmin edir;

3.0.4. fundamental, eksperimental və tətbiqi elmi tədqiqatların təşkilini, əlaqələndirilməsini, inkişafını təmin edir və onların ayrı-ayrı sahələrə tətbiqində iştirak edir;

3.0.5. elmi-texniki inkişafın prioritet istiqamətlərinin müəyyənləşdirilməsində iştirak edir;

3.0.6. elmtutumlu təsərrüfat subyektlərinin yaradılmasına dair təkliflər hazırlayır, qərarlar qəbul edir, elmi-istehsalat yönlü təcrübə-sınaq, müxtəlif yönlü təsərrüfat müəssisələri yaradır və elmlə istehsalatın qarşılıqlı əlaqələrini təşkil edir;

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

3.0.7. tabeliyindəki elmi müəssisələrin fəaliyyətini tənzimləyir, inkişafına dəstək verir;

3.0.8. tabeliyindəki elmi tədqiqat müəssisələrinin yenidən təşkil və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər verir;

3.0.9. Naxçıvan Muxtar Respublikasında elmi-texniki potensialı qoruyur və inkişaf etdirir, iqtisadiyyatın gücləndirilməsində, milli mədəni irsin zənginləşdirilməsində, əhalinin sağlamlığının qorunmasında bu potensialdan səmərəli istifadə edir, mühüm sosial problemlərin həllində elmin və texnikanın rolunu yüksəldir, dövlətin informasiya ehtiyatlarını artırır;

3.0.10. milli dəyərlərin qorunmasına yönəlmiş elmi tədqiqatları təşkil edir və həyata keçirir;

3.0.11. elmlə təhsilin əlaqələrini möhkəmləndirir;

3.0.12. beynəlxalq elmi və elmi-texniki əməkdaşlığın təşkilində və həyata keçirilməsində iştirak edir;

3.0.13. əqli mülkiyyət hüquqlarının qorunmasına və həyata keçirilməsinə yardım edir;

3.0.14. elmin nailiyyətlərinə əsaslanan istehsalat sahələrinin və müəssisələrinin yaradılmasını həyata keçirir və fəaliyyətini təmin edir;

3.0.15. aparılan elmi tədqiqat işlərinin proqramlarını daim yeniləməklə, onları fundamental elmin və müasir dünya elminin, texnikasının və texnologiyalarının prioritet inkişaf istiqamətlərinə uyğun tərtib edir, elmi işləri məqsədyönlü təşkil edir, elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırır;

3.0.16. innovasiya fondunda toplanmış vəsaitdən təyinatı üzrə istifadəni təmin edir;

3.0.17. elmi tədqiqatların kompleks problem mövzular üzrə aparılmasını təşkil edərək, onların mütəmadi monitorinqini aparır, nəticələrini araşdırır, əldə olunmuş nailiyyətləri inkişaf etdirir;

3.0.18. öz əməkdaşlarının xarici ölkələrin akademiyalarına, elmi mərkəzlərinə və ali təhsil müəssisələrinə yaradıcılıq ezamiyyətlərinə, xüsusən gənc alim və mütəxəssislərin ixtisasartırmaya göndərilməsini təşkil edir;

3.0.19. elmi müəssisə və təşkilatlar, ali təhsil müəssisələri, təsis sənədlərində elmi fəaliyyət nəzərdə tutulan ictimai birliklər və digər hüquqi şəxslərlə Bölmənin elmi və elmi-texniki əməkdaşlığını təşkil edir, sahələrarası elmi tədqiqat işlərini genişləndirir, inkişaf etdirir;

3.0.20. muxtar respublikada aparılan elmi tədqiqatları vahid mərkəzdən əlaqələndirir, elmi tədqiqatlar üzrə ekspertizanın aparılması, səmərəliliyin qiymətləndirilməsi üzrə tədbirləri həyata keçirir;

3.0.21. nazirliklərin, dövlət komitələrinin, təsərrüfat subyektlərinin, özəl qurumların və ali təhsil müəssisələrinin nəzdindəki elmi tədqiqat müəssisələrinin və laboratoriyaların müvafiq dövr üçün elmi fəaliyyətini təhlil edir, qiymətləndirir, istiqamətləndirir və tövsiyələr verir;

3.0.22. işçilərinin sosial-məişət problemləri ilə bağlı məsələləri araşdırır, onların həllinə yönəlmiş tədbirlər görür;

3.0.23. Bölmənin strukturuna daxil olan qurumların işçilərinin ərizə, şikayət və təkliflərinə baxılmasını və onların Bölmənin vəzifəli şəxsləri tərəfindən qəbulunu təmin edir, daxil olmuş müraciətlərə qanunvericiliyə uyğun olaraq, o cümlədən yaradılmış internet saytı vasitəsi ilə cavab verir;

3.0.24. yerli və xarici elmi müəssisələrin Bölmə ilə bağlı fəaliyyətlərini əlaqələndirir;

3.0.25. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin edir;

3.0.26. Naxçıvan Muxtar Respublikasının elmi-texniki inkişafının kompleks proqnozlarını işləyib hazırlayır;

3.0.27. tətbiqi elmi tədqiqatların aparılması, dövlət elmi-texniki tapşırıqlarının yerinə yetirilməsi işlərini, innovasiya siyasətini, bu Əsasnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyətini həyata keçirir;

3.0.28. elmdə inhisarçılıq imkanlarını istisna edən azad rəqabət və müsabiqə formalarına üstünlük verir, yaradıcılıq potensialının tam aşkarlanması üçün şəraitin yaradılmasını təmin edir;

3.0.29. qanunvericiliyə uyğun olaraq, xarici ölkələrin müvafiq elmi qurumları ilə əlaqələr yaradır və inkişaf etdirir, beynəlxalq elmi konfrans, konqres, simpozium və qurultaylarda iştirak edir;

3.0.30. elm sahəsində dövlət sirrini, konfidensial məlumatları qoruyur, elm sahəsinə aid obyektlərin mülki müdafiəsi sahəsində tədbirlər həyata keçirir;

3.0.31. dövlət qurumlarına onların qanuni sorğusu əsasında zəruri sənədlər və materiallar təqdim edir;

3.0.32. bu Əsasnaməyə uyğun olaraq digər vəzifələri yerinə yetirir.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

## 4. Bölmənin hüquqları

4.0. Bölmənin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. elm sahəsinə aid hüquqi aktların layihələrinin və həmin sahədə qanunvericiliyi təkmilləşdirmək məqsədi ilə təkliflərin hazırlanmasında iştirak etmək;

4.0.2. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə elmin inkişafı ilə bağlı zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.3. tabeliyində olan elmi müəssisələr və təşkilatlar tərəfindən icrası məcburi olan qərar və sərəncamlar vermək, onların icrasına nəzarət etmək;

4.0.4. elm, mədəniyyət və incəsənət xadimlərinin əlyazmalarını, tarixi əhəmiyyət kəsb edən digər materialları Bölmənin Elmi Arxivində və Elmi Kitabxanasında saxlamaq;

4.0.5. Bölmənin strukturuna daxil olan qurumlarda Bölmənin Rəyasət Heyətinin qərarlarının icrası, kargüzarlıq işinin təşkili, ərizə, şikayət və təkliflərə baxılması, həmçinin əmək və icra intizamına riayət olunması vəziyyətini yoxlamaq;

4.0.6. qanunvericiliyə uyğun olaraq, müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.0.7. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.8. Bölmənin Rəyasət Heyətinin aparatının və Bölmənin strukturuna daxil olan qurumların işçilərinin əmək və sosial-məişət şəraitinin, maddi təminatının yaxşılaşdırılması və sağlamlığının qorunması barədə təkliflər vermək;

4.0.9. istifadəsində olan dövlət əmlakı barəsində hüquqlar həyata keçirmək;

4.0.10. Bölmənin ehtiyacları üçün əsaslı tikinti aparılması, bina və tikililərin yenidən qurulması və təmiri ilə bağlı təklif vermək;

4.0.11. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə razılaşdırmaqla fundamental, eksperimental və tətbiqi tədqiqatlar aparan, elmi tədqiqat işlərinin tətbiqini təmin edən elmi müəssisələr yaratmaq;

4.0.12. fundamental, eksperimental və tətbiqi elmi tədqiqatları həyata keçirmək və əlaqələndirmək məqsədilə problem şuraları, komissiyalar yaratmaq;

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

4.0.13. fiziki və hüquqi şəxslərin ianələri, startap layihələri və qanunla qadağan olunmayan digər maliyyə mənbələri hesabına innovasiya fondu yaratmaq;

4.0.14. dövlət əhəmiyyətli elmi, elmi-texniki, iqtisadi proqramların və innovasiya layihələrinin, xüsusilə təbii ehtiyatların mənimsənilməsi üzrə kontraktların dövlət ekspertizasında iştirak etmək;

4.0.15. elmi-texniki inkişaf məsələləri üzrə dövlət vəzifələrinin həyata keçirilməsi üçün tövsiyələrin hazırlanmasında dövlət orqanları ilə əməkdaşlıq etmək;

4.0.16. elmtutumlu təsərrüfat sahələrinin yaradılmasına dair vəsatət qaldırmaq;

4.0.17. təcrübə-konstruktor, elmi layihələndirmə işlərini həyata keçirmək, ekspedisiyalar təşkil etmək;

4.0.18. ödənişli əsaslarla kadr hazırlamaq;

4.0.19. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, doktorantura və dissertantlıq yolu ilə ixtisaslı kadrlar hazırlamaq;

4.0.20. ictimai prosesləri, sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafı, habelə ekoloji vəziyyəti müstəqil qiymətləndirmək və bu məsələlərə dair təkliflər hazırlamaq;

4.0.21. Bölmədə və digər elmi müəssisə və təşkilatlarda aparılan elmi tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədi ilə elmi əsərlər, jurnallar, toplular, ensiklopediyalar, Bölmənin fəaliyyətini əks etdirən qəzet və elmi-kütləvi jurnallar nəşr etmək;

4.0.22. elmi nailiyyətlərin tətbiqi yolu ilə məhsul istehsalı, elmi-texniki xidmətlər göstərilməsi və innovasiya fəaliyyətinin digər formalarının inkişafı, habelə həmin məqsədlə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün müəssisələrin yaradılmasında hüquqi və fiziki şəxslərə köməklik göstərmək;

4.0.23. idarəetmə proseslərində müasir informasiya-kommunikasiya texnologiyaları vasitələrindən geniş istifadə etmək;

4.0.24. elm sahəsinə sərmayə qoyuluşu üçün əlverişli mühitin yaradılması məqsədi ilə tədbirlər işləyib hazırlamaq və həyata keçirmək;

4.0.25. elmi problemlərin müzakirəsinə və elmi tədqiqat işlərinin əlaqələndirilməsi məsələlərinə həsr edilmiş elmi sessiyalar, konfranslar, simpoziumlar keçirmək;

4.0.26. elmin nailiyyətlərini təbliğ etmək, onun nüfuzunu artırmaq, elmi işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görmək, bu məsələlərin həlli ilə bağlı aidiyyəti dövlət orqanları qarşısında vəsatət qaldırmaq;

4.0.27. bu Əsasnaməyə uyğun olaraq digər hüquqları həyata keçirmək.

**5. Bölmənin strukturu və fəaliyyətinin təşkili**

5.1. Bölmənin Rəyasət Heyətinin aparatı və Bölmənin strukturuna daxil olan elmi müəssisələr və təşkilatlar, mərkəzlər, elmi xidmət, xidmət müəssisələri Bölmənin vahid sistemini təşkil edir.

5.2. Bölmənin işçilərinin say həddi Bölmənin təqdimatı əsasında Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

5.3. Bölmə vəzifələrini bilavasitə və tabeliyində olan qurumlar vasitəsi ilə həyata keçirir.

5.4. Bölmənin ali idarəetmə orqanı Bölmənin ümumi yığıncağıdır.

5.5. Bölmənin Rəyasət Heyəti Bölmənin kollegial icra orqanıdır.

5.6. Bölmənin fəaliyyətinə Bölmənin sədri rəhbərlik edir.

**6. Bölmənin ümumi yığıncağı**

6.1. Bölmənin ali idarəetmə orqanı onun həqiqi və müxbir üzvlərindən ibarət ümumi yığıncağıdır.

6.2. Bölmənin üzvləri Bölmənin ümumi yığıncağında iştirak edirlər.

6.3. Bölmənin ümumi yığıncağında Bölmənin üzvləri ilə yanaşı, elmi əməkdaşlar nümayəndə kimi iştirak edirlər.

6.4. Bölmənin ümumi yığıncağı müzakirə etdiyi məsələlərlə bağlı qərarlar qəbul edir.

6.5. Bölmənin ümumi yığıncağı:

6.5.1. Bölmənin Rəyasət Heyətinin təklifi ilə elmi, elmi xidmət, xidmət müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə məsələləri müzakirə edir;

6.5.2. muxtar respublikada fundamental elmi tədqiqatların əsas istiqamətlərini müəyyən edir;

6.5.3. Naxçıvan Muxtar Respublikasında əldə olunmuş elmi nəticələri və Bölmənin Rəyasət Heyətinin elmi-təşkilati fəaliyyəti haqqında illik hesabatı müzakirə və təsdiq edir;

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

6.5.4. Bölmənin elmi müəssisələrinin və ayrı-ayrı alimlərin əldə etdiyi elmi nəticələrə və yeni elmi istiqamətlərə həsr olunmuş məruzələrini dinləyir;

6.5.5. Naxçıvan Muxtar Respublikasında fundamental, eksperimental və tətbiqi elmi tədqiqatların həyata keçirilməsinə dair təşkilati məsələləri həll edir;

6.5.6. növbəti maliyyə ili üçün Bölmənin büdcə maliyyələşdirilməsi planının istiqamətləri və prioritetləri barədə təklifləri müzakirə edir.

6.6. Bölmənin həqiqi və müxbir üzvləri bu Əsasnaməyə uyğun olaraq öz vəzifələrini yerinə yetirmədikdə onların fəaliyyəti Bölmənin ümumi yığıncağında müzakirə olunur və nəticəyə dair qərar qəbul edilir.

6.7. Bölmənin ümumi yığıncağı azı ildə bir dəfə çağırılır.

6.8. Bölmənin ümumi yığıncağının gündəliyi, təqdim olunmuş təkliflər nəzərə alınmaqla, Rəyasət Heyəti tərəfindən tərtib olunur.

## 7. Bölmənin Rəyasət Heyəti

7.1. Bölmənin Rəyasət Heyəti Bölmənin vəzifələrini təmin edən kollegial icra orqanıdır.

7.2. Bölmənin Rəyasət Heyəti Bölmənin sədrindən, sədr müavinindən, elmi katibindən və digər üzvlərindən ibarətdir.

7.3. Bölmənin Rəyasət Heyətinin fəaliyyətinə rəhbərliyi və iclaslarına sədrliyi Bölmənin sədri həyata keçirir.

7.4. Bölmənin Rəyasət Heyətinin üzvləri Bölmənin Rəyasət Heyətinin iclasında gizli səsvermə yolu ilə və iclasda iştirak edənlərin üçdə iki səs çoxluğu ilə 5 il müddətinə seçilirlər.

7.5. Bölmənin Rəyasət Heyətinin tərkibinin formalaşdırılması Bölmənin sədrinin təqdimatı ilə həyata keçirilir.

7.6. Bölmənin Rəyasət Heyətinin bütün üzvlərinin seçkiləri beş ildən bir keçirilir.

7.7. Bölmənin Rəyasət Heyəti öz fəaliyyəti barədə Bölmənin ümumi yığıncağına və Akademiyanın Rəyasət Heyətinə hesabat verir, Bölmənin nəzdində təşkilatların yaradılması, yenidən təşkili və ləğvi barədə aidiyyəti üzrə təkliflər verir.

7.8. Bölmənin Rəyasət Heyətinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Bölmənin Rəyasət Heyətinin qərarları onun iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

7.9. Bölmənin ümumi yığıncağının Bölmənin Rəyasət Heyətinin bütün üzvlərinin yenidən seçilməsi barədə əsaslandırılmış qərar qəbul etmək səlahiyyəti vardır.

7.10. Bölmənin Rəyasət Heyətinin üzvü üzvlükdən çıxdığı halda, Bölmənin ümumi yığıncağı Rəyasət Heyətinin növbəti seçkilərinə qədər qalan müddət üçün (90 təqvim günündən az olmamaqla) Bölmənin Rəyasət Heyətinin yeni üzvünü seçir.

7.11. Bölmənin sədrinin müavini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə razılaşdırılmaqla Rəyasət Heyəti tərəfindən 5 il müddətinə seçilir.

7.12. Bölmə sədrinin müavini Bölmənin sədrinin ona həvalə etdiyi vəzifələri yerinə yetirir.

7.13. Rəyasət Heyəti:

7.13.1. Bölmənin ümumi yığıncağının iclaslarını çağırır və keçirir;

7.13.2. Bölmənin elm istiqamətlərinə müvafiq aparılan elmi tədqiqat işlərinin planını təsdiq edir;

7.13.3. Bölmənin elmi müəssisə və təşkilatlarının, ali təhsil müəssisələrinin və digər elmi müəssisə və təşkilatların elmi-tədqiqat fəaliyyətini əlaqələndirir və istiqamətləndirir.

7.13.4. Bölmənin elmi müəssisələrinin fəaliyyəti haqqında hesabatı dinləyir;

7.13.5. Bölmənin müəssisələrinin fəaliyyət istiqamətlərini və ixtisaslaşmasını müəyyən edir;

7.13.6. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinə Naxçıvan Muxtar Respublikasında fundamental və tətbiqi elmlərin vəziyyəti və əldə edilən mühüm elmi nəticələrlə bağlı elmi-təşkilati fəaliyyəti haqqında illik hesabatı və təklifləri təqdim edir:

7.13.6.1. fundamental və tətbiqi elmlərin vəziyyəti və alimlərin əldə etdiyi mühüm elmi nəticələr haqqında illik məruzəni;

7.13.6.2. öz elmi-təşkilati və maliyyə-təsərrüfat fəaliyyəti haqqında illik hesabatı;

7.13.6.3. fundamental və tətbiqi elmlərin inkişafının prioritet istiqamətlərinə, eləcə də axtarış tədqiqatlarının istiqamətlərinə dair təklifləri;

7.13.7. Bölmənin maliyyələşdirilməsi üçün dövlət büdcəsinin tərtibinə dair təkliflər hazırlayır;

7.13.8. Bölmənin nəşriyyat qurumunun fəaliyyətini əlaqələndirir, onun fəaliyyət planlarını təsdiq və onların yerinə yetirilməsinə nəzarət edir;

7.13.9. Bölmənin jurnallarının təsis edilməsi, fəaliyyətinin dayandırılması və ya xitamı barədə qərarlar qəbul edir, jurnalların baş redaktorlarını təyin və redaksiya heyətlərinin tərkibini təsdiq edir;

7.13.10. Bölmənin fəxri fərmanı ilə təltif edir;

7.13.11. elmi əsərlər, ixtira və kəşflərə görə adlı mükafatlar təsis edir və mükafatlandırır;

7.13.12. elmi kadrların hazırlanmasını və Bölmənin əməkdaşlarının əlavə təhsilini təşkil edir;

7.13.13. elmi tədqiqat işlərinin nəticələrinin tətbiqi üçün təkliflər verir;

7.13.14. üzvləri arasında vəzifə bölgüsü aparır;

7.13.15. bu Əsasnaməyə uyğun olaraq, səlahiyyətlərinə aid kadr məsələlərini həll edir;

7.13.16. Bölmənin üzvləri, vəzifəli şəxsləri, elmi, elmi xidmət, xidmət və elmi-istehsalat müəssisələri tərəfindən bu Əsasnaməyə əməl olunmasına nəzarət edir;

7.13.17. bu Əsasnamə ilə səlahiyyətinə aid edilən digər məsələləri həll edir.

7.14. Bölmənin Rəyasət Heyəti müzakirə etdiyi məsələlərlə bağlı qərarlar qəbul edir.

7.15. Bölmənin Rəyasət Heyəti institutların təqdimatı ilə onların elmi şuralarının tərkibini təsdiq edir.

## 8. Bölmənin sədri

8.1. Bölmənin fəaliyyətinə ümumi rəhbərliyi Bölmənin sədri həyata keçirir.

8.2. Bölmənin sədri Akademiyanın ümumi yığıncağında Akademiyanın həqiqi üzvləri sırasından 5 il müddətinə seçilir. Akademiyanın ümumi yığıncağında seçilmiş Bölmənin sədrini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həmin vəzifəyə təsdiq edir.

8.3. Bölmənin sədri vəzifəsinə görə Akademiyanın vitse-prezidentinə bərabər tutulur.

8.4. Bölmənin sədri Bölmənin vəzifələrinin icrasına görə şəxsən məsuliyyət daşıyır.

8.5. Bölmənin sədri:

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

8.5.1. Bölmənin ümumi fəaliyyətini təşkil edir;

8.5.2. Bölmənin fəaliyyətinə rəhbərlik edir;

8.5.3. Bölmənin ümumi yığıncağının və Rəyasət Heyətinin iclaslarına sədrlik edir;

8.5.4. Bölmənin əmlakından istifadə və maliyyə vəsaitləri barədə sərəncam verir;

8.5.5. Bölməni təmsil edir, müqavilələr bağlayır, etibarnamələr verir və digər qanuni hüquqi hərəkətləri həyata keçirir;

8.5.6. dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitinin Bölmənin elmi, elmi xidmət, xidmət və elmi-istehsalat müəssisələri arasında bölgüsünü təsdiq edir;

8.5.7. Bölmənin Rəyasət Heyəti aparatının işçiləri və təsdiq olunmuş nomenklatur çərçivəsində digər işçilərlə əmək müqavilələri bağlayır, işçilər barəsində mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

8.5.8. Bölmənin Rəyasət Heyətinin aparatı və Bölmənin tabeliyində olan təşkilatlar üçün icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

8.5.9. elmin ayrı-ayrı sahələrinin inkişafı, monitorinqlərin aparılması, strateji fəaliyyət proqramlarının hazırlanması məqsədi ilə mütəxəssislərdən ibarət işçi qrupları yaradır;

8.5.10. elm sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı təklifləri və normativ hüquqi aktların layihələrini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

8.5.11.innovasiya fondunu yaradır, toplanan maliyyə vəsaitinin Bölmə əməkdaşlarının sosial müdafiəsinə, mükafatlandırılmasına və elmin inkişafı üçün zəruri məsələlərin həllinə yönəldilməsini təmin edir;

8.5.12. bu Əsasnaməyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

8.6. Bölmənin sədri səlahiyyətlərinin müvəqqəti icrasını müavininə tapşıra bilər.

### 9. Bölmənin müəssisələri

9.1. Bölmənin müəssisələrinə elmi, elmi xidmət, xidmət və elmi-istehsalat müəssisələri daxildir.

9.2. Bölmənin institutları, muzeyi, rəsədxanası, stansiyaları, nəbatat bağı Bölmənin elmi müəssisələridir.

9.3. Bölmənin kitabxanası və arxivi elmi xidmət müəssisələridir.

9.4. Bölmənin nəşriyyatı və digər təşkilatları Bölmənin xidmət müəssisələridir.

9.5. Bölmənin elmi müəssisəsinə onun direktoru rəhbərlik edir.

9.6. Bölmənin elmi müəssisəsinin direktoru Bölmənin ümumi yığıncağında gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir və Bölmənin Rəyasət Heyəti tərəfindən təsdiq olunur.

9.7. Bölmənin Rəyasət Heyəti Bölmənin elmi müəssisəsinin direktorunu vaxtından əvvəl vəzifəsindən azad edə bilər.

9.8. Bölmənin elmi müəssisəsi qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

9.10. Bölmənin əsas struktur özəyi fundamental tədqiqatlar aparan institutlarıdır. Bölmənin Rəyasət Heyətinin qərarı ilə elmi və elmi-texniki fəaliyyət göstərən, tətbiqi elmi tədqiqatlar aparan digər elmi müəssisələrin statusu Bölmənin institutlarına bərabər tutulur.

## 10. Bölmənin əmlakı və maliyyə vəsaiti

10.1. Bölmənin əmlakı mülkiyyətində olan dövlət əmlakından, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, qrantlardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

10.2. Bölmə öz əmlakından yalnız Əsasnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Bölmə sərəncamında olan dövlət əmlakının səmərəli istifadəsinə və qorunmasına nəzarət edir.

10.3. Bölmənin maliyyələşdirilməsi hər il Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində ayrıca sətirlə göstərilir.

## 11. Yekun müddəalar

11.1. Bölmənin Əsasnaməsi Akademiyanın Rəyasət Heyəti ilə razılaşdırılmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilir.

11.2. Bölmənin yaradılması, yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının qanunvericiliyinə və Akademiyanın Nizamnaməsinə uyğun həyata keçirilir.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il __ aprel tarixli 6-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin**

# S T R U K T U R U

1. AMEA-nın Naxçıvan Bölməsinin aparatı
2. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu
3. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu
4. Bioresurslar İnstitutu
5. Təbii Ehtiyatlar İnstitutu
6. Batabat Astrofizika Rəsədxanası
7. Əlyazmalar Fondu
8. Elmi Kitabxana
9. Nəşriyyat